# Təhsilin demokratik idarə olunması vacib şərtdir

**Fəridə Allahverdiyeva**
*Bakı Qızlar Universitetinin dosenti,*
*pedaqogika üzrə fəlsəfə doktoru*
**E-mail:** feride.esed1@ gmail.com

**Rəyçilər:** p.ü.e.d., prof. A.N. Abbasov,
p.ü.e.d., prof. L.N. Qasımova

**Açar sözlər**: elmi hazırlıq, nəzəri hazırlıq, idarə etmək, demokratik, humanist, təhsil sistemi, iqtisadi-siyasi, inkişaf, obyektiv şərait

**Ключевые слова:** научная готовность, теоретическая готовность, управление, демократический, гуманный, образовательная система, политико-экономический, развитие, объективная обстановка

**Key words:** scientific readiness, theoretical readiness, management, democratic, humanitarian, educational system, political-economical, development, objective situation

Müasir dünyamız tarixin enişli-yoxuşlu yolları ilə irəliləyir, sosial-iqtisadı dəyişikliklər elm və texnikanın nəhəng sıçrayışları ilə müşayiət olunur, insan biliyi misilsiz dərəcədə genişlənir. Müasir dövrdə təlim prosesinə və təhsil və tərbiyənin məzmununa, müəllim kadrlarının elmi nəzəri hazırlığına və əməli fəaliyyətinə verilən tələblər xeyli artmışdır. Respublikamızda yaradılmış hüquqi baza əsaslı islahatların həyata keçirilməsinə geniş imkanlar açır. Bu məqsədlə xüsusi sərəncamlar imzalanmışdır və bu sərəncamlardan irəli gələn vəzifələri müəyyənləşdirmək, yerinə yetirilməsi yollarını seçmək təhsil sistemində respublikada qazanılmış mütərəqqi ənənələri saxlamaqla, inkişaf etmiş ölkələrin təhsili idarəetmə sisteminə keçirmək lazım gəlir. Buna görə bütün təhsil müəssisələrinə müstəqillik verilməli, idarəetmədə demokratik idarəetmə prinsipləri əsas götürülməli, idarəetmənin müasir çevik mexanizmi yaradılmalıdır.

Bu gün Azərbaycan Respublikasının Təhsil Qanunu, Azərbaycan Respublikasının Təhsil sahəsində İslahat Proqramı və bazar iqtisadiyyatının tələbləri təhsilin və təhsil müəssisələrinin fəaliyyətinin daha səmərəli demokratik prinsiplər əsasında təşkilini və idarə edilməsini təkmilləşdirməyi yeni vəzifələrdən biri kimi qarşıya qoyur.

"Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda deyilir ki, təhsil cəmiyyətdə və dövlətin inkişafının əsasında durmaqla strateji əhəmiyyətə malik olan və üstün inkişaf etdirilən fəaliyyət sahəsidir. Azərbaycan Respublikasının təhsil sistemi milli zəminə, ümuməşəri dəyərlərə əsaslanır və demokratik xarakter daşıyır.

Təhsil sisteminin demokratik və humanist prinsiplər əsasında idarə edilməsi üçün təhsil işçiləri təhsil sahəsində dövlət siyasətinin mahiyyətini, onun milli-mənəvi tələblərini dərindən bilməlidirlər. Təlim və tərbiyənin məzmununu dövlətin müəyyənləşdirdiyi standartlara uyğun şəkildə təmin etmək hər bir təhsil işçisinin məktəb rəhbərinin, pedaqoji kollektivin başlıca vəzifələrindəndir.

Təhsildə gedən yeniləşmələr onun idarəetmə funksiyalarının ciddi şəkildə dərinləşdirilməsini tələb edir və təlim-tərbiyənin gələcəyini əvvəlcədən görmək, idarəetmə sistemini düzgün seçmək, hər bir işi vaxtında icra etmək əsas məsələ kimi qarşıda durmuşdur.

Ümummilli liderimiz Heydər Əliyev demişdir: "Məktəb elə bir prosesdir, orqanizmdir ki,

hamı - şagird də, tələbə də, müəllim də, bütün kollektiv də inkişafdadır". Buna görə təhsil müəssisələrinin ahəngdar inkişafını təşkil etmək təhsil sahəsində çalışanların ən başlıcası isə müəssisə rəhbərlərinin başlıca vəzifəsidir, çünki təhsil sahəsində qazanılan hər bir müvəffəqiyyət həmin vəzifənin necə yerinə yetirilməsindən asılıdır.

Təhsil demokratik dəyərlərin inkişaf etdirilməsinə görə əsas amillərdən biridir. Çünki təhsil, qabaqcıl texnologiyaların mənimsənilməsinə kömək edir. Dünya təhsilində daima modelləşdirmə aparılır. Təhsilin demokratikliyi təhsilin fundamentallığının artırılması, habelə təhsilin humanistləşdirilməsidir. Demokratik təhsil sisteminin məqsədi totalitar təhsil sistemindən xeyli fərqlənir. Demokratik təhsilin məqsədi demokratik qaydalar və təcrübəyə dair olan, hər şeyi bilmək istəyən müstəqil vətəndaşların formalaşması üçün şəraitin yaradılmasıdır.

Demokratik idarəetmədə mövqe və fikirlərin müxtəlifliyini öyrənmək, onlardan istifadə etmək və vahid hakim ideologiyaya yol verməmək üçün geniş imkanlar yaranır. Təhsildə azad axtarış ruhu demokratik prinsiplərin həyata keçirilməsində böyük əhəmiyyətə malikdir. Elə azad axtarışın özü demokratik dəyər hesab olunur. Demokratik təhsil sistemi dünyada hamı tərəfindən qəbul olunur. Onun bir çox elementlərini inkişaf etdirmək və təkmilləşdirmək zəruri hesab olunur. İndi əminliklə demək olar ki, vaxtı keçmiş totalitar təhsil metodları sərbəst rəqabət nəticəsində öz yerini yeni təhsil vasitələrinə və metodlarına vermişdir. İndi təhsil işçiləri bu vaxtadək toplanmış dünya təcrübəsini, iqtisadi, siyasi, sosial və mədəni inkişafın xalqımıza xas olan xüsusiyyətlərini daha dərin öyrənməli və başqa ölkələrin demokratik ideyalarına yaradıcılıqla yanaşmağa, onların yaxşı cəhətlərindən istifadə etməyə diqqət yetirməlidirlər.

Təhsil sisteminin idarə edilməsində yeniləşmənin müxtəlif istiqamətdə qoyulmasına diqqəti artırmaq lazımdır. Obyektiv şəraiti nəzərə almaqla, təhsilin idarə edilməsinin müxtəlif variantlarından istifadə edilməlidir. Təhsil müəssisəsini idarə edən bəzi rəhbərlər şəraitdən şikayətlənərək köhnəlikdən əl çəkə bilmirlər. Köhnə sistemi dəyişmək və yenilik axtarmaq istəməyən idarə edən özündə cəsarət tapmalıdır və öz ideyalarını inandırıcı şəkildə həyata keçirməyə çalışmalıdır. İstər idarəetmədə tam sərbəstlik olsun, istərsə də idarəetmənin məzmunundan irəli gələn yeniləşdirmək fikri olsun, fərqi yoxdur rəhbər demokratik fikirli adamlar içərisindən seçilməlidir. Əgər idarə edən rəhbər demokratik fikirlidirsə pedaqoji kollektivə yalnız məsləhət vermək qalır və belə halda tədrisin keyfiyyətinə diqqət yetirmək üçün daha çox imkan yaranır.

Demokratik idarəetmə sistemində hazır resept vermək olduqca çətindir. Rəhbərlik-pedaqoji kollektiv, rəhbərlik-şagirdlər, müəllimlər valideynlər sisteminə üstünlük verilməlidir.

Demokratik idarəetmə fəaliyyətinin optimallaşdırılması onun əsas vasitələrindən biri hesab olunur. Təhsildə rəhbərlikdə ictimai dövlət idarəetməsinə üstünlük verilməsi idarəetmənin təşkilatçılıq funksiyasının daha da təkmilləşdirilməsi onun bütün mərhələlərinin ilkin və vacibi hesab edilir. Buna görə də təhsil sistemində demokratiyanın vacibliyi zərurəti meydana çıxır.

Sosial tədqiqatlar göstərir ki, müəllimlərin əksəriyyəti təhsilin yeniləşməsində gedən proseslərdə nə etmək lazım gəldiyini bilmir və bəzi hallar da təlim-tərbiyə işlərində çətinlik çəkir. Onlar dərs prosesində hər bir uşağın inkişafı üçün optimal şəraitin yaradılmasında nöqsanlara yol verir, istedadlarını gözdən qaçırır. Hələ də ayrı-ayrı pedaqoji kollektivlərdə öz fəaliyyətini səmərəli qura bilməyən, şagirdlərlə demokratik və humanist qaydada sistemli şəkildə iş aparmaqda nöqsanlara yol verənlər var. Müəllimlərin bir çoxu öz fəaliyyətində əvvəlki vərdiş etdiyi inzibati-amirlik metodlarından əl çəkə bilmirlər. Müəllimin

fəaliyyətindəki bütün sahələri öyrənmək, ona istiqamət vermək birinci növbədə məktəb rəhbərinin üzərinə düşür. Məktəbdə qazanılmış müvəffəqiyyət yaranmış problemlərin həyata (düzgün) keçirilməsindən çox asılıdır.

Son zamanlar təhsilin demokratik idarə edilməsi sahəsində müxtəlif və maraqlı fikirlər formalaşıb. İdarəetmə təhsilin məzmunundan irəli gəlir. Əvvəlcə təhsilin məzmununu yeniləşdirmək, sonra isə onun idarə edilməsi haqqında fikirləşmək lazımdır. Belə fikirlər birinci növbədə tədris planları, proqramları və dərsliklərin günün tələbləri baxımından yeniləşdirilməsinin həyata keçirilməsinin ön plana çəkilməsinə üstünlük verməkdir. Təhsil müəssisələrinin demokratikləşdirilməsinin ilk addımları pedaqoji kollektivlə aparılan iş, onların əməyinin qiymətləndirilməsi və nüfuzunun artırılması üçün görülən tədbirlərdir. Təhsilə rəhbərlikdə ictimai dövlət idarəetməsinə üstünlük verilməsi, idarəetmənin təşkilatçılıq funksiyasının daha da təkmilləşdirilməsinin, onun bütün mərhələlərinin ilkin və vacibi hesab edilir. Cəmiyyətimizi idarə edən kadrların işdə yol verdikləri ciddi nöqsanların bir çoxunun kökləri məktəbdən artıb inkişaf edir.

Həyatımızın bütün sahələrində olduğu kimi, təhsil sisteminin demokratik ruhda yeniləşməsi üçün son illər də təhsil müəssisələrinin məsuliyyəti xeyli yüksəldilmiş, idarəetmənin bir sıra yeni formaları irəli sürülmüşdür.

İndi respublikamızın bütün şəhər və rayonlarında idarəetmə formalarından biri kimi rayon (şəhər) və məktəb şuraları yaradılmışdır. Şurada ideya-mənəvi tərbiyə, ictimai tərbiyə, əmək və peşəyönlü təlim, kadrlarla iş və maddi texniki bazanın möhkəmləndirilməsi və s. kimi bölmələr daim fəaliyyət göstərir.

Şurada eyni zamanda mədəni-maarif, idman məsələləri ilə əlaqə yaratmaqla sinifdənxaric və məktəbdənkənar işlərin təşkilinə, müəssisələrin ixtisaslı kadrlarla tam təmin olunması üçün gənclərin peşəyə istiqamətləndirilməsinə diqqət yetirilir, müəllim əməyinin qiymətləndirilməsi, nüfuzunun qaldırılmasına qayğı göstərilir.

Məktəb şurasının işinin əsas istiqamətlərindən biri də şagirdlərin təlimi ilə bağlı məsələlərin həllidir. Məktəb şurası təlim-tərbiyə prosesinin o cümlədən şagirdlərin arzusu nəzərə alınmaqla ayrı-ayrı fənlərin dərindən öyrənilməsinin təşkilinə, məktəbin iş rejimi, daxili intizam qaydaları, şagirdlərin biliklərini və davranışlarını demokratik əsaslarla qiymətləndirilməsi, müəllimlərin attestasiyası və metodiki işin təşkili məsələlərinin həllində hər cür kömək göstərir.

Deməli məktəb şurası aşağıdakı istiqamətləri əsas götürür:

= təlim-tərbiyə işinin planını hazırlamaq, kadrların yeniləşdirilməsini müzakirə və təsdiq etmək.

= Şagirdlərin mükəmməl təhsil alması üçün tədris-metodik bazanın yaradılması.

= Şagirdlərin təlimi ilə bağlı məsələlərin həlli.

= Şagirdlərin sinifdənxaric və məktəbdənkənar tərbiyə işlərinin həyata keçirilməsinə şərait yaratmaq.

= Uşaqların tərbiyəsində valideynlərin, ictimai təşkilatların məsuliyyətinin artırılması və s.

Məktəb şurası öz işini Təhsil Nazirliyinin məktəb şurası haqqında əsasnaməsinə uyğun qurur. Bütün bunları nəzərə alaraq demokratik əsaslarla təhsilin idarə olunması Azərbaycan Respublikası Təhsil Qanununda deyildiyi kimi, "Təhsil cəmiyyətdə dövlətin inkişafının əsasında durmaqla strateji əhəmiyyətə malik olan və üstün inkişaf etdirilən fəaliyyət sahəsidir. Azərbaycan Respublikasının təhsil sistemi milli zəminə, ümumbəşəri dəyərlərə əsaslanır, demokratik xarakter daşıyır".

Deməli təhsili demokratik idarəetmə məqsədəuyğun qərar qəbul etməyə, idarəolunan

obyekti təşkil etməyə, ona nəzarət etməyə, tənzimlənməyə yönəlmiş fəaliyyət, düzgün informasiya əsasında işin təhlili və onun yekunlaşdırılması kimi başa düşülür. Təhsil sistemini demokratik idarə etmək həmin müəssisənin daxilində baş verən mürəkkəb (pedaqoji, təşkilati və metodik) prosesləri və münasibətləri şüurlu olaraq tənzimləmək deməkdir.

**Məqalənin aktuallığı.** Təhsilin demokratik idarə olunması müəllimlərin pedaqoji fəaliyyətinə əsaslı təsir göstərir. Bu təsir xüsusən ilk növbədə müəllimin pedaqoji ünsiyyət üslubuna, onun xarakterinə təsir edir.

**Məqalənin elmi yeniliyi.** Təhsilin demokratik idarə edilməsi idarəedənin pedaqoji təhsilini daima artırmalı, formalaşdırmalı və o, bir peşəkar müəllim kimi özünün pozitiv və neqativ keyfiyyətlərini dərk edib idarəçiliyi demokratik əsaslarla qurmaq qabiliyyətinə malik olmalıdır.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən praktik məqsədlə müəllimlər, pedaqoqlar, ali və orta ixtisas məktəbinin tələbə və magistrantları, nəzəri cəhətdən isə elmi iş yazarkən istifadə edilə bilər.

## Ədəbiyyat

1. Allahverdiyeva F.M., Tağıyeva S.S. Pedaqogika: Dərs vəsaiti. Bakı: Elm və təhsil, 2018.

2. Cabbarov R. Təhsil müəssisələrinin idarə edilməsi məsələləri. Bakı: Müəllim, 2011.
3. Cabbarov R. Təhsil müəssisələrində təlim-tərbiyə işlərinin idarə edilməsi və planlaşdırılması məsələləri. Bakı: Müəllim, 2014.
4. Rəsulov S.C., Əzizov R.Z. Orta ümumtəhsil məktəbin idarə edilməsinin əsas istiqamətləri. Bakı: Müəllim, 2010.
5. İsmixanov M.A., Bəxtiyarova R.Ə. Məktəbin idarə edilməsi. Bakı, 2012.
6. Məmmədzadə R., Abdullayev A., Kərimova F., Cabbarov R., Rəsulov S., Quliyev Ə. Təhsilin idarə edilməsinin bəzi problemləri. Bakı, 2008.

**Ф. Аллахвердиева**

## Демократическое управление образованием является обязательным фактором

## Резюме

Образовательная система полагается на национальную почву и на всеобщие принципы, имея, демократический характер. Статья включает основные принципы демократического управления образовательной системы, а также включает подготовку учителей на основе демократических принципов. Решение проблем поставленные для менеджеров описаны в статье. Разные инновации в образовательной системе были предложены в данной статье.

**F. Allashverdiyeva**

## The democratic management of the education is important

## Summary

The educational system is rely on national ground and on universal values and consider an democratic attitude. The article includes the principles of the democratic management of the educational system and prepare teachers based on democratic principles. The solvency of the issues for the managers is described as a priority in this article. The different innovations of the management of the educational system is proposed in the article.

**Redaksiyaya daxil olub:**01.07.2019